

# Azərbaycanın yaratdığı yeni reallıqlar gələcək uğurları şərtləndirir

## *Əldə etdiyimiz bütün uğurlar sülhə və sabitliyə xidmət edir*

***Prezident İlham Əliyevin rəhbərliyi ilə son 19 il ərzində respublikamızda uzunmüddətli, düzgün strategiya nəticəsində siyasi, sosial-iqtisadi sahələrdə mühüm uğurlar əldə edilib, dinamik yüksəlişə nail olunub. Dövlət başçısının Azərbaycana rəhbərliyinin bütün mərhələlərində sosial-iqtisadi islahatların həyata keçirilməsinə mühüm önəm verilib. Hətta dünyada yaşanan ən ağır maliyyə böhranı və iqtisadi geriləmə, habelə pandemiya şəraitində belə dövlətimizin başçısının çevik, praqmatik siyasəti sayəsində Azərbaycan xarici iqtisadi təsirləri neytrallaşdıra, nəzərdə tutulan bütün sosial-iqtisadi proqramları tam icra edə bilib. Bunun məntiqi nəticəsidir ki, hazırda respublikamızda sosial-iqtisadi nailiyyətlərin davamlılığı və dayanıqlı inkişafı üçün etibarlı zəmin yaradılıb. Bütün bu uğurlara nail olunmasında isə iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın minimuma endirilməsi, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi layihələri xüsusi önəm kəsb edib.***

Ölkəmizin hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması xalq-iqtidar birliyini daha da möhkəmləndirib, vətəndaşların Prezident İlham Əliyevin ətrafında sıx birləşməsini gerçəkləşdirib. Dövlət başçısının rəhbərliyi ilə reallaşdırılan mükəmməl iqtisadi strategiya nəticəsində islahatların davamlılığı təmin edilib, iqtisadi inkişaf daha da sürətlənib.

Ötən müddətdə Azərbaycanın regionlarının dinamik inkişafı da daim diqqətdə saxlanılıb. Prezident İlham Əliyev bu məsələyə hər zaman xüsusi önəm verib. Dövlətimizin başçısı vaxtaşırı rayonlara səfər edib, yerlərdə investisiyaların qeyri-neft sektoruna, xüsusən də regionların inkişafına yönəldilməsi, əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması, işsizlik probleminin həlli, bütün bunların nəticəsində isə əhalinin həyat şəraitinin yaxşılaşdırılması ilə maraqlanıb, qarşıya çıxan çətinliklərin aradan qaldırılması məqsədilə icra strukturlarına zəruri tapşırıq və tövsiyələrini çatdırıb.

İkinci Qarabağ müharibəsində Azərbaycanın tarixi qələbəsi ilə erməni işğalındakı torpaqlarımız geri qaytarılıb, ərazi bütövlüyümüz bərpa olunub. Xalqımızın bu parlaq, möhtəşəm zəfəri ölkəmizin siyasi nüfuzunun, iqtisadi-hərbi qüdrətinin təsdiqinə çevrilib, eyni zamanda, regionumuzda tamamilə yeni geosiyasi və geoiqtisadi reallıqları şərtləndirib. Bununla da Azərbaycan dünyada öz sözü, öz mövqeyi, müstəqil xarici siyasəti olan ölkə imicini daha da möhkəmləndirib. Eyni zamanda, Vətən müharibəsində Azərbaycanın ədalətli mövqeyinin dost və qardaş ölkələr tərəfindən müdafiə edilməsi, siyasi və mənəvi dəstək göstərilməsi respublikamızın yeni güc mərkəzləri və yeni ittifaqlara qoşulması zərurətini meydana çıxarıb. Şübhəsiz ki, bu reallıq təhlükəsizlik və tərəfdaşlıq müstəvisində maraqların koordinasiya edilməsi və uzlaşdırılmasından irəli gəlib.

Bugünkü gerçəkliklər qalib ölkəmizin sözünün kəsərliliyini, dost ölkələrin sayının günbəgün artmasını və beynəlxalq hüququn onun yanında olmasını reallaşdırır, respublikamızı regionda sülhün, təhlükəsizliyin, açıq, konstruktiv, bərabərhüquqlu əməkdaşlığın, sözün əsl mənasında, qarantı kimi çıxış edən dövlət kimi tanıdır.

"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi", "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" adları çəkilən ölkələrin ikitərəfli münasibətlərinə yeni siyasi məzmun gətirib.

Xatırladaq ki, son illər ərzində Azərbaycan–Türkiyə, Azərbaycan-Rusiya əlaqələri möhkəm dostluğa, mehriban qonşuluğa, etibarlı tərəfdaşlığa və qarşılıqlı hörmət prinsiplərinə əsaslanıb. Başqa sözlə, Azərbaycan, Türkiyə və Rusiya dövlət başçılarının birgə səyi və siyasi iradəsi sayəsində ölkələrimiz arasında əlaqələr strateji tərəfdaşlıq müstəvisində uğurla inkişaf edib. Şübhəsiz ki, hər üç ölkə rəhbərinin müntəzəm görüşləri dövlətlərarası münasibətlərə yüksək dinamizm verib, siyasi, sosial-iqtisadi əməkdaşlığın inkişafı üçün əlverişli zəmin yaradıb.

"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ndə Azərbaycan və Türkiyə arasındakı ikitərəfli münasibətlərin daha da genişləndirilməsi perspektivləri diqqət mərkəzində saxlanılaraq, siyasi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər, idman sahələrində imkan və potensialların birləşdirilməsi, dərinləşdirilməsi xüsusi yer tutur. Eyni zamanda, bu sırada iqtisadi əməkdaşlığın gücləndirilməsi, müştərək maraq daşıyan regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsi də önəmli vəzifələrdən biridir.

"Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə"ni də Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın inkişafı şərtləndirir. Bu bəyannamənin əsasında hər iki ölkə prezidentinin təşəbbüsləri dayanır, bununla bağlı təklif edilən proqramlar uğurla reallaşır. Məhz elə bunun nəticəsidir ki, hazırda Azərbaycanın mühüm tərəfdaşı olan Rusiya ilə əlaqələr yüksək səviyyədədir, siyasi, iqtisadi, humanitar, hərbi-texniki və s. sahələrdə əməkdaşlıq yeni inkişaf mərhələsindədir. Qarşılıqlı siyasi, sosial-iqtisadi münasibətlər iki ölkənin birgə səyi ilə mühüm tədbirlərin, önəmli layihələrin uğurla reallaşdırılmasına əlverişli imkan yaradır və yüksək göstəricilər əldə edilir.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda yaranan yeni reallığa uyğun olaraq, düşmən tərəfindən dağıdılan, tar-mar edilən yaşayış sahələrimizdə genişmiqyaslı bərpa-quruculuq layihələri reallaşdırılır. Yüksək sürətlə aparılan tikinti işləri ilə Azərbaycan Vətən müharibəsində olduğu kimi, Qarabağın bərpasında da gücünü bütün dünyaya nümayiş etdirir.

Dövlətimizin başçısının rəhbərliyi ilə erməni barbarlığının qurbanı olan şəhər və kəndlərimizdə hazırda mühüm strateji obyektlər, müəssisələr istifadəyə verilir, yenilərinin təməli qoyulur, yüksək texnologiyaların tətbiqinə start verilir, Qarabağ və Şərqi Zəngəzur bölgəsinin "yaşıl enerji" zonasına çevrilməsi istiqamətində önəmli tədbirlər gerçəkləşdirilir. Bütün bunlar dövlətimizin başçısının qəsbkardan xilas olunan rayonlara səfərləri ilə öz təsdiqini tapır.

Qarabağ və Şərqi Zəngəzurun bərpası prosesi Azərbaycanın demək olar ki, öz gücü ilə həyata keçirilir. Ümumiyyətlə, ölkəmiz bu gün bütün meyar və parametrlər üzrə kimdənsə, hansı dövlətdənsə asılı deyil. Hətta respublikamız istər xarici borc, istər iqtisadi artım, istərsə də adambaşına düşən valyuta ehtiyatları baxımından dünyada iqtisadi sahədə ən qabaqcıl yerlərdən birində qərarlaşır. Bu, iqtisadi, həmçinin siyasi müstəqilliyin möhkəmləndirilməsi baxımından əsas şərtdir və belə bir yanaşma artıq dövlətimizin yürütdüyü siyasətdə prioritet xətt kimi mühüm önəm daşıyır.

Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılması mühüm önəm daşıyır. Bununla bərabər beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafı da iqtisadiyyatımızın səmərəliliyinin artırılmasına müsbət təsir göstərir. Eyni zamanda, nəqliyyat, infrastruktur və logistika sahələrində birgə layihələr dövlətimizin iqtisadi imkanlarını genişləndirir, əhəmiyyətini artırır.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, son 10 il ərzində nəqliyyat sektorunda orta illik artım tempi 3,5 faiz təşkil edib, yeni infrastruktur qurulub, özəl investisiyalar artıb. Ölkə regional əhəmiyyətli nəqliyyat-logistika və ticarət qovşağına çevrilib və əsas ticarət marşrutlarından bəhrələnməyin əsası qoyulub.

Ölkəmizin tranzit potensialından danışarkən, qeyd edə bilərik ki, Azərbaycanda TRASEKA, "Şimal-Cənub" kimi iri nəqliyyat dəhlizlərinin reallaşdırılması istiqamətində nəhəng infrastruktur layihələri gerçəkləşdirilib. Avropa və Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini təmin edən Bakı-Tbilisi–Qars dəmir yolu istifadəyə verilib. Ölkəmizdə liman infrastrukturu, limanların inkişafı üzrə logistika yaxşılaşdırılıb, limanlarda tranzit yük daşıması üstünlüyünə nail olunub. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ərazisində azad iqtisadi zonanın yaradılması hesabına isə tranzit yüklər üzrə əlavə dəyər artırılıb.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu gün iqtisadi strategiyanın uğurla həyata keçirilməsi, dərin islahatların davamlılığının təmin olunması, müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinin inkişafı və bütün bunlarla yanaşı, Qarabağ və Şərqi Zəngəzurun sabitlik, tərəqqi məkanına çevrilməsi kimi məsələlər qarşıya prioritet vəzifələr kimi qoyulub. Son 18 il ərzində bu istiqamətlərdə genişmiqyaslı tədbirlər reallaşdırılıb, islahatlar gerçəkləşdirilib, nəticədə parlaq uğurlar qazanılıb. Bu, beynəlxalq təşkilatların hesabatlarında öz ifadəsini tapıb.

Dünyanın ən böyük beyin mərkəzlərindən olan "İrs" Fondu tərəfindən hazırlanan "İqtisadi Azadlıq İndeksi 2021" hesabatında Azərbaycan irəliləyiş əldə edib. Ölkəmiz hesabatda dünya reytinqində əvvəlki hesabat ili ilə müqayisədə 6 pillə irəliləyərək 178 ölkə arasında 38-ci yerə, regional reytinqdə – Avropa regionu üzrə əvvəlki hesabat ili ilə müqayisədə 1 pillə irəliləyərək 45 ölkə arasında 23-cü yerə yüksəlib. Bununla yanaşı, Azərbaycan hesabatda dünya üzrə orta göstəricidən (61,6 bal) yuxarı və Avropa regionu üzrə orta göstəriciyə bərabər nəticə əldə edərək 70,1 bal qazanıb.

Dünya İqtisadi Forumu tərəfindən "Qlobal Rəqabətlilik İndeksi"ndə Azərbaycan 11 pillə irəliləyərək 141 ölkə arasında 58-ci mövqedə qərarlaşıb. Hesabatın son nəşrinə əsasən, Azərbaycan 12 indikatordan 8-i üzrə irəliləyərək MDB ölkələri arasında lider mövqelər sırasında yerləşib. Həmçinin ölkəmiz bu hesabatda Cənubi Qafqaz regionunda birinci yeri tutub.

"Qlobal İnnovasiya İndeksi" hesabatında əvvəlki hesabat ili ilə müqayisədə Azərbaycan ümumi reytinq sıralamasında 2 pillə irəliləyərək 132 ölkə arasında 80-ci olub. Həmin hesabatda Azərbaycan müxtəlif gəlir səviyyələrində innovasiya performansına görə "Yuxarı orta gəlir qrupu"na (upper middle-income group economies) aid edilib.

Müstəqil Azərbaycan bu gün sosial-iqtisadi, siyasi və mədəni inkişafının yeni mərhələsini yaşayır. Ölkədə milli iqtisadiyyatın gücləndirilməsini və müasirləşməsini təmin etmək məqsədilə məqsədyönlü sosial-iqtisadi islahatlar həyata keçirilir. Bunun nəticəsində iqtisadiyyatın həcmi getdikcə böyüyür, infrastruktur yenilənir və güclənir, maliyyə imkanları genişlənir və nəhayət, Azərbaycan yuxarı orta gəlirli dövlətlər qrupunda möhkəmlənir.

Son illədə artan iqtisadi güc Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir böyük layihələrin təşəbbüskarı olmaq imkanı verib. Ölkə regional iqtisadiyyatın lokomotivi olaraq dünyanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından birinə çevrilib. Bütün bunlar Azərbaycanın regionda iqtisadi rolunu yüksəldib, xarici təsirlərə davamlı olmasına və müstəqil dövlət kimi suverenliyinin güclənməsinə möhkəm zəmin yaradıb.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***